# İMAM MƏHDİ (Ə) BAŞQALARININ NƏZƏRİNDƏ

<"xml encoding="UTF-8?>

## İMAM MƏHDİ (Ə) BAŞQALARININ NƏZƏRİNDƏ

İmam Məhdi (ə), onun dünya səviyyəli qiyam və inqilabı ilə əlaqədar məsələlər təkcə şiə kitablarında deyil, sair islami firqələrin e`tiqad mənbələrində də bəyan olunmuş və onun barəsində geniş səviyyəli bəhslər aparılmışdır. Onlar da Peyğəmbəri Əkrəmin pak əhli beytindən və Həzrəti Fatimeyi Zəhra əleyha səlamın övladlarından olan[1] həzrəti Məhdinin varlığına e`tiqad bəsləyirlər. Sünnilərin Həzrəti Məhdi (ə)-ın varlığına nə dərəcədə e`tiqad bəsləmələrini bilmək üçün onların böyük alimlərinin elmi əsərlərinə müraciət etmək lazımdır. Çoxlu sünni təfsirçiləri öz kitablarında aşkar şəkildə demişlər ki, Qur`an ayələrindən bə`ziləri Məhdinin axirəz-zamanda zühur etməsinə işarə edir. O cümlədən, Fəxr Razinin[2] və Qurtəbinin[3] kitablarını qeyd etmək olar.

Həmçinin, sünnilərin əksər mühəddisləri İmam Məhdi ilə əlaqədar rəvayətləri öz kitabları cəm etmişlər ki, onların arasında sünnilərin ən mö`təbər kitabları da gözə dəyir. O cümlədən Sihahi-sittə, Müsnədi Əhməd kitablarını qeyd etmək olar ki, Hənəfin məzhəbini başçısıdır[4]

Sünni alimlərindən bə`ziləri də həm keçmişdə, həm də hal-hazırda İmam Məhdi (ə)-la əlaqədar müstəqil kitablar yazmışlar. O cümlədən Əbunəim İsfəhani «Ərbəin» məcmuəsində (40 hədis), Suyuti Əl-Urfil Vərdi fi əxbaril-Məhdi» kitabında qeyd etmişdir.

Qeyd etmək lazımdır ki, sünni alimlərindən bə`ziləri Məhdilik əqidəsini müdafiə etmək və bu əqidənin inkarçılarını rədd etmək məqsədi ilə kitab və məqalələr yazmış, elmi bəyanlarla, rəvayət şahidləri ilə İmam Məhdi (ə)-ın hadisəsini qəti və inkarolunmaz hadisələr sırasında qeyd etmişlər. O cümlədən Məhəmməd Siddiq Məğribini qeyd etmək olar ki, İbni Xəldunun yazdığı kitaba rədd cavabı yazmış və onu çox kəskin şəkildə tənqid etmişdir.[5]

Qeyd olunan bu nümunələr sünnilərin Məhdilik barəsində tutduqları mövqeyi göstərir.

Bu bölmənin axırında yüzlərlə rəvayətdən yalnız sünnilərin məşhur və e`timad etdiyi kitablarda da qeyd olunmuşdur iki rəvayəti nəql edirik ki. Peyğəmbəri Əkrəm buyurmuşdur: «Əgər dünyanın (ömründən) bir gündən artıq qalmamış olsa, hökmən Allah təala o günü o qədər

uzadacaqdır ki, mənim xanədanımdan və mənimlə eyni adda olan bir kişini qiyam etdirsin[6]

Başqa bir yerdə isə buyurur: «Mənim xanədanımdan adda mənimlə eyni və xilqətdə mənə oxşar olan bir şəxs qiyam edəcəkdir. O (dünyanı) zülm və sitəmlə dolduğu kimi haqq ədalətlə dolduracaqdır.»[7]

Qeyd etmək lazımdır ki, axirəz-zaman zühur edərək dünyanı haqq-ədalətlə dolduracaq bir xilaskarın zühuruna e`tiqad bəsləmək dünya səviyyəli bir e`tiqaddır və bütün asimani dinlərin həqiqi ardıcılları öz dini kitabların tə`limlərinə əsaslanaraq, və`dəsi verilən bu böyük şəxsiyyətin intizarını çəkirlər. Müqəddəs kitablardan Zəbur, Tövrat, İncil, eləcə də hinduların, zərduştlərin, berahmanların kitablarında dünyanın böyük xilaskarının zühur edəcəyinə dair işarələr vardır. Əlbəttə, hər bir millət bu xilaskar üçün xüsusi bir ləqəb seçmişdir. Zərdüştlər onu «Susyaniş» (yə`ni dünyanı xilas edən), məsihilər onu və`dəsi verilən Məsih, yəhudilər onu Süruri Mikaili adı ilə tanıyırlar.

Zərdüştlərin müqəddəs kitabından «Camasib namə» ibarələrini aşağıdakı kimi qeyd edirik:

Ərəb peyğəmbəri axırıncı peyğəmbərdir ki, Məkkə dağları arasında peyda olacaqdır... Öz bəndələri (xidmətçiləri) ilə birlikdə yeyər, onların oturduğu kimi oturar... onun dini dinlərin ən şərəflisidir. Onun kitabı bütün asimani kitabları batil edər (və qüvvədən salar)... O Peyğəmbərin qızının övladlarından bir nəfər «dünyanın günəşi» və «Zamanın şahı» adı ilə tanınır. Yəzdanın hökmü ilə dünyada yalnız o şəxs padşah olar ki, o Peyğəmbərin axırıncı canişini olsun... Onun dövləti qiyamətə qədər davam edər...» [8]

---

[1] Əl müstədrəku ələl səhihi 4-cü cild səh 557

[2] Təfsiri Əl Kəbir 16-cı cild səh 40

[3] Təfsiri Qurtubi 8-ci cild səh 121

[4] Sihahi Sitə dedikdə altılıq təşkil edən səhih kitablar nəzərdə tutulur. Sihahi Sitə hədis kitablarından olan altı böyük hədis məcmuəsinə aid edilən ümumi bir ünvandır ki, sünnilərin nəzərində ən mö`təbər hədis kitabları sayılır və aşağıdakılardan ibarətdir: Səhihi Buxari, Səhihi Müslim, Sünəni Əbu Davud, Sünəni İbni Macə, Sünəni Nəsaid, Camei Termizi. Sünni alimləri bu

kitabdan nəql olunan hədisləri səhih hesab edir və peyğəmbəri Əkrəmin sözü olaraq qəbul edirlər. Qur`andan sonra onların ən mö`təbər kitabları da bunlardır.

[5] İbni Xəldun sünnilərin arasında böyük cəmiyyət şünas (sosyoloq) hesab olunur və o Məhdi (ə) əlaqədar rəvayətlərlə bir qisminə irad tutmuş onları zəif saymışdır. Amma bununla yanaşı Həzrəti Məhdi (ə) əlaqədar rəvayətlərin bə`zilərini səhih hesab etmişdir bununla da Məhdilik məsələsində şəkk yaratmışdır. Məhəmməd Sidiq məğribi İbrazul vəhmil məknun min kəlmi ibni xəldun adlı kitabında onun sözlərini rədd edərək cavab vermişdir.

Həmçinin Əbdül Möhsin ibni Həmdül İbad Ər rədu əla mən həzəbə bil əhadisi səhihətil varidətil fil Məhdi adlı maqaləsində ibni Xəldunun şübhələrinə cavab vermişdir.

[6] Sünnəni Əbu Davud ikinci cild hədis 4282 səh 106

[7] Mö`cəmi Kəbir onuncu cild hədis 1229 səh 83

[8] Ədyan və məhdəviyyət səh 21